*Musayev Akif Fərhad oğlu, professor,*
*AMEA-nın müxbir üzvü,*
*AMEA-nın İqtisadiyyat İnstitutunun*
*Postkonflikt Ərazilərin Bərpası*
*Elmi Mərkəzinin rəhbəri,*
*Email: akif.musayev@gmail.com*

# KEYFİYYƏTLİ İQTİSADİ İNKİŞAF: NƏZƏRİ ASPEKTLƏR VƏ GÖSTƏRİCİLƏR

2020-ci ildə Azərbaycan xalqı tarixinin ən yadda qalan və şanlı dönəmlərindən birini yaşadı. Ali Baş Komandan, Prezident İlham Əliyevin və müzəffər Azərbaycan ordusunun şücaəti, fədakarlığı və yüksək peşəkarlığı sayəsində 30 ilə yaxın müddətdə erməni işğalı altında qalan əzəli torpaqlarımız düşmən tapdağından azad edildi. Məlum olduğu kimi, münaqişə bütövlükdə regionun inkişafına böyük ziyan vurmuşdur. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi, məhrumiyyətlərlə yaşamalı oldu. Zəngin faydalı qazıntı ehtiyatları işğal edilmiş ərazilərdə qalmışdı. Lakin bütün çətinliklərə baxmayaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin səyləri sayəsində ölkədə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesləri sürətlə inkişaf etməyə başladı. Ulu öndərin daxili siyasətinin mahiyyəti demokratik, hüquqi dövlətin qurulmasından, güclü iqtisadiyyatın formalaşdırılmasından və bu məqsədlə iqtisadi islahatların aparılmasından ibarət idi. Beləliklə, 1996-cı ildən sonra dinamik iqtisadi inkişaf dövrü başladı. Bu inkişafı təmin etmiş dahi şəxsiyyətin siyasi kursunu onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirdi.

Hazırkı mərhələdə Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birini müharibədən sonrakı yenidənqurmanın konseptual çərçivələrinin müəyyən olunması təşkil edir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyat quruculuğu və tikinti-bərpa işləri müasir standartlar, yenilikçi meyillər və unikal istehsal üsullarını zəruri edir. İstər həmin ərazilərdə, istərsə də bütün respublikada iqtisadi inkişafın innovativ xarakter daşımasına nail olmaq lazımdır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyat

quruculuğunun innovativ meyillər əsasında təşkili ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsində və dayanıqlı, artan inkişafının təmin edilməsində müstəsna rol oynayacaqdır.

İlk əvvəl onu qeyd edək ki, inkişaf "müsbət" işarəsi ilə xarakterizə edilən hərəkət formalarından biridir. "İqtisadi inkişaf" anlayışı eyni dərəcədə həm "artım" anlayışını, həm də "dayanıqlıq" anlayışını ehtiva edir. Dayanıqlıq iqtisadiyyatın yeni tarazlıq vəziyyətinə uyğunlaşma qabiliyyəti kimi başa düşülür. İqtisadi inkişafın əvəzsiz şərtini ölkənin iqtisadi həyatının bütün sahələrinin müasirləşdirilməsi, yəni istehsalın, sahibkarlıq fəaliyyətinin təşkili və texnologiyaların tətbiqi kimi istiqamətlər təşkil edir. İqtisadi artımı iqtisadi inkişafdan ayırmaq lazımdır. İqtisadi inkişaf iqtisadi artımdan daha geniş anlayışdır. İqtisadi inkişaf milli iqtisadiyyatın həm iqtisadi artım, həm də tənəzzül vəziyyətində ola biləcəyini nəzərdə tutur. Bundan əlavə, tənəzzül məcmu tələb və məcmu təklif arasında tarazlığın bərpa olunduğu, səmərəsiz işləyən müəssisələrin bazarı tərk etdiyi dövr hesab olunur. Nəticədə gələcək iqtisadi artım üçün zəmin yaranır. Lakin bizim məqsədimiz məhz keyfiyyətli iqtisadi inkişafa nail olmağın yollarına nəzər salmaq, müasir dövrün belə nəticəni əldə etmək üçün hansı imkanlar açdığını təhlil etməkdən ibarətdir.

Azərbaycan inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlmək üçün potensial imkanlı ölkələr sırasında ən böyük üstünlüyə malikdir. Beynəlxalq təcrübəyə nəzər saldıqda görürük ki, inkişaf etmiş ölkələr bu statusa təbii resurslara görə yox, məhz bilik, savad, təhsil və elmin sayəsində nail olublar. Yəni inkişaf etmiş ölkəyə çevrilmək üçün ÜDM quruluşu yüksək keyfiyyətə və mükəmməlliyə cavab verməlidir. Başqa sözlə, ÜDM-un quruluşunda əsas yeri elm tutumlu sənaye və xidmət tutmalıdır. Bu baxımdan artıq 20 ilə yaxındır ki, Azərbaycanda da cənab Prezidentin təşəbbüsü ilə qara qızılın insan kapitalına çevrilməsi ölkədə aparılan islahatların əsas prinsipini təşkil edir.

İqtisadi artım hər bir ölkənin iqtisadiyyatında mərkəzi yerlərdən birini tutur. Bu onunla əlaqədardır ki, iqtisadi artım ölkənin digər dünya ölkələri arasında yerini, rəqabət qabiliyyətini müəyyən etdiyi kimi, ölkənin iqtisadi inkişaf səviyyəsini, tələbatların ödənilmə dərəcəsini və həyat səviyyəsini də müəyyən edir. İqtisadi artım göstəricilərini iki qrupa ayırmaq olar: kəmiyyət göstəriciləri və keyfiyyət göstəriciləri. Kəmiyyət göstəriciləri iqtisadi artımın əsasən kəmiyyət dəyişməsini, yəni əhalinin həyat səviyyəsinin yüksəlməsinə imkan verən daha çox əmtəə və xidmətlərin istehsalını ifadə edir. İqtisadi artımın kəmiyyət göstəriciləri ilə yanaşı, onun sosial yönümünü xarakterizə edən keyfiyyət göstəricilərindən də istifadə olunur. Bunlara əhalinin sosial müdafiəsi dərəcəsi, asudə vaxtının dinamikasının göstəriciləri, sosial infrastrukturun inkişafı, insan kapitalına investisiyaların artımı və s. aid edilir.

Azərbaycanın nisbətən kiçik iqtisadiyyatı və nisbətən məhdud yerli bazarı olduğu üçün onun iqtisadi artımı, əsasən, ixracatın genişlənməsindən asılıdır. 1994-2020-ci illərdə ixracın əmtəə strukturu 97 mal qrupundan ibarət olmuşdur. 1994-ci ildə bunlardan 79-u üzrə ixrac həyata keçirildiyi halda 2020-ci ildə bu 93, yəni əmtəə nomenklaturası üzrə genişlənmə 18 % təşkil etmişdir. 26 ildə ixracın həcmi 21 dəfə artmış (cari qiymətlərlə), yəni 1994-ci ildə 652734 min ABŞ dollarından 2020-ci ildə 13 740 567,6 min ABŞ dollarına çatmışdır. Həmin dövrdə idxalın həcmi uyğun olaraq 777 912.0 və 10 730 720,2 min ABŞ dolları təşkil etmişdir. Mal nomenklaturasına əsasən 1994-cü ildə yalnız 2 mal qrupu üzrə idxal həyata keçirilməyib (hörmə məlumatlarının

hazırlanması üçün bitki mənşəli materiallar və küləş və hörmə üçün digər materiallar). 26 ildə idxalın həcmi təxminən14 dəfə artmış (cari qiymətlərlə), yəni 1994-ci ildə 777 912,0 min ABŞ dollarından 2020-ci ildə 107 307 20,2 min ABŞ dollarına çatmışdır. 1994-cü ildə idxal ixracı 125 178 min ABŞ dolları üstələdiyi halda 2020-ci ildə ixracın həcmi idxaldan 3 009 847 4 ABŞ dolları artıq olmuşdur. 2009-cu ildə 47,3 milyard dollar təşkil edən ümumi idxalın 85%-dən çoxu sənaye xammalı və yanacaqdan gəldi: 54%-i Avropadan, 17%-i Şimali və Cənubi Amerikadan, 16%-i Asiyadan, qalan 13% digər ölkələrdən gəlir. Eyni 2009-cu ildə İsrailin 47,8 milyard dollarlıq ixracatının 32%-i Avropaya, 35%-i ABŞ -a, 20%-i Asiyaya, qalan 13%-i isə digər ölkələrə göndərildi. 1990-cı illərdə İsrailin ABŞ-a sənaye ixracı bu ölkədən idxalını xeyli üstələyirdi və 2000-ci ildən bəri almaz ixracı nəzərə alınmasa belə, idxal üzərində ixracatın davamlı artımı müşahidə olunur.

2022-ci ilin yanvar ayında Azərbaycanda istehsal olunmuş ümumi daxili məhsul 9257,6 milyon manat təşkil etmişdir və bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,8% çoxdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6%, qeyri-neft-qaz sektorunda isə 8,8% artmışdır. ÜDM istehsalının 54,4 % sənaye, 8,4% ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,6% nəqliyyat və anbar təsərrüfatı, 3,0% tikinti, 2,4% kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,4% informasiya və rabitə, 1,0% turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 15,6% digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,2%-i təşkil etmişdir [6].

Təhlillər onu deməyə əsas verir ki, Azərbaycanda ÜDM-nin və ixracın əsas hissəsini neft və qeyri-neft məhsulları təşkil edir. Elmi və texnoloji məhsulların istehsalı və ixracı demək olar ki, yox dərəcəsindədir. Lakin bir çox inkişaf etmiş ölkələrdə ixracın 50%-dən çoxunu məhz elmi-texnoloji məhsullar təşkil edir. Qeyd etmək lazımdır ki, ÜDM-in və ölkə ixracının daha keyfiyyətli tərkibini əldə etmək üçün 4-cü sənaye inqilabı böyük imkanlar yaradır. Elm və texnologiyaya əsaslanan rəqəmsal keçid keyfiyyətli iqtisadi inkişafı şərtləndirən əsas amil kimi çıxış edir.

Məlum olduğu kimi, sosial məsələlərin həlli ilə bağlı həyata keçirilən tədbirlər ölkəmizin regionlarının inkişafında xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlərin mərkəzində insan amili dayanır. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”rə əsasən, “*yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf strategiyasının əsasını təşkil edir. Eləcə də, ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edilməsi, insan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli “hərəkətverici qüvvələri” kimi müəyyən olunmuşdur”*[1].

İnsan kapitalı cəmiyyətin əsas dəyərlərindən biri olmaqla yanaşı iqtisadi artımın əsas amillərindən biri kimi qəbul edilir. Bu baxımdan insan kapitalının formalaşması və inkişafı, eləcə də onun iqtisadi artıma təsiri ilə bağlı məsələlərin təhlili xüsusi aktuallıq kəsb edir. Bundan başqa, insan kapitalı fərddə potensial qabiliyyətlə təmsil olunan kapitaldır. İnsanın fitri - intellektual qabiliyyət və istedadına, habelə təlim, təhsil və praktik fəaliyyət prosesində əldə etdiyi bilik və praktiki bacarıqlara əsaslanan gəlir

mənbəyidir.

İnsan kapitalı nisbətən sabit və dəyişən komponentlərə bölünə bilər. Dəyişən komponentlər post-sənaye iqtisadiyyatı şəraitində xüsusi bilik, bacarıq və ehtiyacları təşkil edir. Daimi komponentlərə insan inkişafının əsas istiqamətləri, məsələn, fundamental dəyərlər və insan inkişafının əsas vektorunu təyin edən ehtiyacların istiqaməti daxildir.

İqtisadçılar insan kapitalının dəyərini həm makro, həm də mikro səviyyədə müəyyən edirlər. Mikro səviyyə üçün bu, müəssisənin insan kapitalını bərpa etmək xərcləridir. Makro səviyyədə əhaliyə həm natural, həm də pul formasında verilən sosial transfertlər, habelə dövlətin məqsədli xərcləri olan güzəştli vergitutma aid edilir.

İnsan kapitalının səmərəliliyini qiymətləndirmək üçün müxtəlif modellərdən istifadə olunur. Miqrasiyanın təhsilə, mədəniyyətə, səhiyyəyə sərmayə qoyuluşunun faydalılığını nümayiş etdirmək üçün insan kapitalının analitik modeli istifadə olunur [4].

İntellektual əməyin nəticəsi olaraq yaradılmış innovasiyanın dəyəri müvafiq biliklərin onların müasir səviyyəsi ilə müqayisədə artımı və innovasiyanın yayılma perspektivi ilə sahənin inkişafına, istehsalın səmərəliliyinin yüksəlməsinə müəyyən töhfə verə bilməsi ilə təyin edilir.

Elmi-texniki məhsulun qiymətləndirilməsi üçün aşağıdakı göstəricilər sistemindən istifadə etmək lazımdır:

- elm üçün dəyəri (az, orta, yüksək);
- yeniliyi (az, orta, yüksək);
- istehsal üçün dəyəri (az, orta, yüksək);
- ən yeni xarici nailiyyətlərə uyğunluğu (səviyyədən aşağı, həmin səviyyədə, səviyyədən yuxarı);
- ən yeni yerli nailiyyətlərə uyğunluğu (səviyyədən aşağı, həmin səviyyədə, səviyyədən yuxarı);
- həmin elmi-texniki məhsula olan tələbat (aşağı səviyyə, orta səviyyə, yuxarı səviyyə). İnnovasiyaların mənimsənilməsi və kütləvi istifadəsi mərhələsində innovasiya prosesinin qiymətləndirilməsi zamanı effektivliyin dörd əsas növünü fərqləndirmək olar: iqtisadi, texnoloji, sosial və ekoloji.

Belə bir yanaşma mövcuddur ki, iqtisadi artım zaman ərzində kəmiyyət və keyfiyyət göstəricilərində müsbət dəyişikliyi əks etdirən, ictimai və fərdi tələbatların ödənilməsi səviyyəsinin yüksəldilməsində ifadə olunan makroiqtisadi sistemin struktur təkmilləşdirilməsinin dinamik prosesidir [5]. Artıq qeyd etdiyimiz kimi, makroiqtisadi strukturun təkmilləşdirilməsi prosesi təkcə mövcud iqtisadi potensialdan deyil, eləcə də istehsalın sahəvi və regional strukturu, institusional mühitin inkişafı və ölkələrarası münasibətlər sistemindən, eləcə də elmtutumlu tərkibindən asılıdır. Azərbaycanda bu istiqamət hədəf kimi müəyyən olunmuş, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin "7.3. Strateji hədəf 3. İnsan kapitalının inkişaf etdirilməsi" bəndində öz əksini tapmışdır. Belə ki, insan kapitalının yuxarıda qeyd olunan sahələrin inkişafına səbəb olması üçün təhsil səviyyəsinin yüksəldilməsi, kadrların bilik və bacarıqlarının genişlənməsi, əmək bazarının tələblərinə uyğunlaşdırıl-

ması, elmi-tədqiqat, innovasiyaların tətbiqi sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması tələb olunur [2].

Ölkənin uzunmüddətli iqtisadi və sosial inkişafının təmin edilməsi baxımından iqtisadiyyata investisiyaların cəlb edilməsi xüsusi rol oynayır, investisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə əlverişli investisiya mühitinin yaxşılaşdırılması qarşıda duran əsas vəzifə kimi müəyyənləşdirilməlidir. Bunu 2014-2018-ci illəri əhatə edən investisiya siyasətinin əsas istiqamətlərində də görə bilərik. Belə ki, sözügedən istiqamətlər qeyri-neft sektorun, regionların inkişafına və s. sahələrə yönəldilmiş investisiyaların zəruriliyini əhatə etməklə birgə sosial sahələrin inkişafını gücləndirəcək insan kapitalına investisiyaların prioritetliyini ehtiva etmişdir [3].

Qeyd edildiyi kimi, Azərbaycan prezidentinin inkişaf proqramının əsas hədəfi Azərbaycanı inkişaf etmiş ölkələr sırasına daxil etməkdir. Yuxarıda qeyd olunanlardan da göründüyü kimi, sözügedən istiqamətdə xeyli işlər görülmüş və bu gün də həmin fəaliyyət davam etdirilir. Şübhəsiz ki, inkişaf və inkişafı şərtləndirən strategiya həm də keyfiyyət cəhətdən fərqlənməlidir, yəni burada elmi texnoloji biliklərin, innovasiyaların, yüksək səviyyəli təhsil və səhiyyə sistemlərinin payı daha da artırılmalıdır. Cəmiyyətin inkişafının post-sənaye mərhələsinə keçidi şəraitində keyfiyyətli iqtisadi inkişafın əsasını müasir biliyə, yüksək peşəkarlığa və bu bilikləri daima inkişaf etdirmək bacarığına malik insan təşkil edir. Yalnız zəkanın qabaqcıl inkişafı ölkənin investisiya cəlbediciliyini formalaşdırır və texnoloji sıçrayışı təmin edir.

## İstifadə olunmuş ədəbiyyat:


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" https://e-qanun.az/framework/46813
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi/https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
3. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı /https://www.economy.gov.az/article/dovlet-proqrami-2014-2018/22376
4. Л.В.Кривенко, В.М.Милашенко. Человеческий капитал как фактор экономического роста в постиндустриальном измерении / https://mer.fem.sumdu.edu.ua/content/acticles/issue_15/L_V_Krivenko_V_M_MilashenkoHuman_kapital_in_the_structure_of_economic_growth_factors_in_post_industrial_measurement.pdf
5. V. Dermanov. Economic Growth or Economic Development: 'In Search of New a Paradigm. 12 Mar. 2013. 45 p.
6. https://www.stat.gov.az/news/index.php?id=5133
7. https://www.adb.org/sites/default/files/institutional-document/486341/aze-digital-development-overview-az.pdf